

“Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır”.
Heydər Əliyev

Heydər Əliyev - xalq birliyi əbədidir!

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır İctimai-siyasi qəzet № 22 (1037) 13 noyabr 2018-ci il Qiyməti 50 qəpik

Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı

## Prezident İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib

Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev binada yaradılan şərait barədə məlumat verdilər.

Qeyd edək ki, Nərimanov rayonu, Atatürk prospekti 89 ünvanında yerləşən beşmərtəbəli inzibati binada “Elektron Hökumətin İnkişafı Mərkəzi” publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb. Burada startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan “İNNOLAND” İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.





## Prezident İlham Əliyev “Bravo” marketlər şəbəkəsinin yeni hipermarketinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva “Bravo” marketlər şəbəkəsinin metronun “Koroğlu” stansiyasının yaxınlığında yerləşən yeni hipermarketinin açılışında iştirak ediblər.

Hipermarketdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verildi. “Bravo” Azərbaycanın ən böyük hipermarket şəbəkəsi hesab olunur.

Bildirildi ki, inşasına ötən ilin mayında başlanılan bu ticarət obyektinin ümumi sahəsi 7 hektardan, ticarət sahəsi isə 8 min kvadratmetrdən artıqdır. Hipermarketin qapalı və açıq avtodayanacağının sahəsi 11 min kvadratmetrdən çoxdur. Bu dayanacaqlarda eyni vaxtda 800-ə yaxın avtomobil saxlanıla bilər. Zövq oxşayan müasir tərtibatlı hipermarketdə bazarlıq üçün hərtərəfli imkanlar var. Müştərilərə ən geniş çeşiddə müxtəlif növ məhsullar təqdim edilir. Yeni hipermarketdə alıcılara, həmçinin “Bravo” özəl ticarət markasına məxsus ərzaqlar, müxtəlif çeşiddə keyfiyyətli qeyri-qida məhsulları da təklif olunur.

Məlumat verildi ki, “Bravo” şəbəkəsinə məxsus market və hipermarketlərdəki ərzaq məhsullarının 90 faizindən çoxu yerli məhsullardır.

## Bir kərə yüksələn bayraq bir daha enməz






Ölkəmizin hər yerində olduğu kimi, Ağstafada da müstəqilliyimizin rəmzi, azərbaycanlıların qürur mənbəyi olan Dövlət bayrağı günü təntənəli şəkildə qeyd olundu. Həmin gün şəhərimizin mərkəzində böyük izdihamlı dəqiqələr yaşandı. Rayonun bütün idarə,müəssisə rəhbərləri, hərbi hissələrin nümayəndələri, məktəbli gənclər Yeni Azərbaycan Partiyasının inzibati binası qarşısına toplaşaraq bayram əhval-ruhiyyəsi ilə yaşadıqlarını nümayiş etdirdilər. Əllərində dövlət bayrağı olan məktəbli gənclərin, eləcə də bütün tədbir iştirakçılarının sevincinin həddi-hüdudu yox idi.

Heydər Əliyev prospekti ilə hərəkət edən minik maşınından səslənən musiqi sədaları bütün şəhəri öz ağuşuna almışdır. Bir qədər keçdikdən sonra əllərində açıq şəkildə dövlət bayrağı olan hərbçilər Heydər Əliyev prospektinə yaxınlaşdılar. Hərbi qulluqçuların mərkəzi küçəni bürüyən dövlət bayrağını göylərə qaldırmaları hamının diqqətini özünə cəlb edirdi.

(Davamı 2-ci səhifədə)

# Bir kərə yüksələn bayraq bir daha enməz







(Əvvəli 1-ci səhifədə)

Bir qədər keçdikdən sonra tədbirin başlanmasına start verildi. Əllərində dövlət bayrağı olan hərbçilər musiqi sədaları altında hərəkət etdilər. Onların arxasınca rayon rəhbərliyi və ictimaiyyət nümayəndələri Heydər Əliyev Mərkəzinə doğru irəliləməyə başladılar.

Şəhər sakinlərinin diqqətini cəlb edən bu yürüş müstəqil dövlətimizə, onun rəhbərliyinə olan hörmət və məhəbbəti ifadə edirdi. Mərkəzi küçə ilə hərəkət edən yürüş iştirakçıları Heydər Əliyevin abidəsi önünə yaxınlaşdılar və əllərindəki tər çiçəkləri abidə önünə qoyaraq dahi rəhbərin əziz xatirəsini yad etdilər.

Dövlət bayrağı gününə həsr olunan bu tədbir Azərbaycanın gücünü, xalqımızın öz dövlətinə sevgisini, dövlət rəmzlərinə ehtiramları bir daha nümayiş etdirdi. Yürüşün keçirilməsində əsas məqsəd milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hissinin və milli-mənəvi dəyərlərin aşılanmasından ibarət oldu.

Tədbirin sonunda yürüş iştirakçıları Heydər Əliyev Mərkəzini ziyarət etdilər, dai rəhbərin həyat və yaradıcılığını əks etdirən fotostentlərlə tanış oldular.

Dövlət Bayrağı Gününün belə təntənəli şəkildə qeyd olunması onu sübut etdi ki, bir kərə yüksələn bayrağımız, bir daha enməz.

***İbrahim Əliyev***

# Konstitusiya Günü qeyd olundu



12 Noyabr Konstitusiya Günü ilə əlaqədar Heydər Əliyev Mərkəzində elmi-praktik konfrans keçirildi. Konfransı giriş sözü ilə açan Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Eyyubova çıxış edərək qeyd etdi ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 23 il keçir. Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktının qəbul olunması ilə Azərbaycan xalqı öz tarixinin ən yeni mərhələsinə qədəm qoydu. Dövlət müstəqilliyimizin bərpa edilməsi isə xalqımızın öz siyasi iradəsinin azad ifadəsinə çevrildi.

L. Eyyubova qeyd etdi ki, ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi və yaxından iştirakı ilə hazırlanan layihələr 12 Noyabr 1995-ci il tarixdə keçirilmiş ümumxalq səsverməsində öz təsdiqini tapdı.Azərbaycanın ilk Konstitusiyasırespublikamızın hüquqi, demokratik dövlət quruculuğu istiqamətində inkişafının hüquqi təsisatlarını, dövlətçiliyimizin əsasını müəyyən etməklə ən yüksək hüquqi qüvvəyə malik olduğunu əks etdirdi.

Konstitusiya Günü ilə əlaqədar edilən məruzədən sonra konfrans iştirakçıları çıxış etdilər. Çıxışlarda qeyd olundu ki, Azərbaycan Dövlət Konstitusiyası Beynəlxalq hüquq normalarına uyğun, insan hüququ və azadlıqlarına geniş yer ayıran mükəmməl hüquqi sənəddir. Çıxışlarda Konstitusiyanın qəbul edilməsində ulu öndər Heydər Əliyevin əməyi xüsusi qeyd olundu və respublikamızda ümumxalq səsverməsi iləqəbul olunan digər hüquqi sənədlərdən irəli gələn vəzifələrin möhtərəm prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirildiyi göstərildi.

# Növbəti səyyar görüş

Rayon rəhbərinin şəhər, qəsəbə və kəndlərdə növbəti səyyar qəbul-görüşü Aşağı Göycəli kəndində keçirildi. Görüşdə kənd sakinləri qarşısında çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev son illər ölkəmizdə həyata





keçirilən sürətli sosial-iqtisadi proqramlardan, ölkəmizdə bütün sahələrdə aparılan məqsədyönlü işlərdən, respublikamızdakı ictimai-siyasi sabitlikdən danışaraq qeyd etdi ki, respublikamızın yaşayış məntəqələrində gedən dinamik inkişaf dövlətimizin qüdrətinin bariz nümunəsidir.

M. Quliyev son illər Ağstafa rayonunda aparılan quruculuq-abadlıq işlərindən danışaraq qeyd etdi ki, bu gün Ağstafa rayonunun adı respublikamızda ən sürətlə inkişaf edən rayonların sırasındadır. Rayonda görülən geniş abadlıq-quruculuq işlərinin yekunu ölkə başçısı tərəfindən qeyd olunmuş və ağstafalıların əməyi yüksək qiymətləndirilmişdir. M. Quliyev onu da qeyd etdi ki, Aşağı Göycəli kəndində görülən işlər deyilənləri bir daha təsdiq edir. Belə ki, Aşağı Göycəli kəndi artıq mavi yanacaqla tam təmin olunmuş, kəndə fasiləsiz elektrik enerjisi verilir. Bu kəndin əhatəsində də olan avtomobil yoluna asfalt örtük salınmış, kənddə müasir tipli məktəb inşa olunmuşdur. Bütün bunlarla yanaşı, Aşağı Göycəli kəndində tibb məntəqəsində təmir-bərpa işlərinin aparılması nəzərdə tutulmuş və yaxın vaxtlarda bu işə başlanılacaqdır.

Tədbirdə iştirak edən ictimaiyyət nümayəndələrinə söz verilmiş və onlar öz ürək sözlərini heç nədən çəkinmədən rayon rəhbərliyinə bildirmişlər. Çıxış edənlər kənddə mövcud olan bəzi problemlərdən söhbət açmış və bu problemlərin aradan qaldırılmasını Rayon İcra Hakimiyyəti başçısından xahiş etmişlər.

Kənd ictimaiyyəti ilə keçirilən görüşdə Prezident Administrasiyasının məsul işçisi Orxan Mürsəlov iştirak etmişdir.

# Həzi Aslanov qəsəbəsində yeni məktəb binası inşa olunur





Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Həzi Aslanov qəsəbəsində yeni tikilən modul tipli məktəbin tikintisi ilə yaxından maraqlanmış, baxış keçirmiş və məktəbdə görülən quruculuq, tamamlama işləri ilə yaxından tanış olmuşdur. Həmin gün icra başçısı məktəbin qarşısında qəsəbə sakinləri ilə görüş keçirmişdi. M. Quliyev görüşdə kənd sakinləri qarşısında çıxış etmiş, ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, mövcud siyasi sabitlikdən, eləcədə son illər ölkə rəhbərliyinin müvafiq tapşırığına əsasən Ağstafa rayonunda həyata keçirilən sosial-iqtisadi layihələrdən ətraflı məlumat vermişdir. M. Quliyev qeyd etmişdir ki, rayonun bütün yaşayış məntəqələrində əhalinin məşğulluğunun artırılması istiqamətində görülən işlər davam etməkdədir. Həzi Aslanov qəsəbəsində görülən işlər təqdirəlayiqdir. Belə ki, qəsəbədə qaz, işıq, içməli və suvarma suyunda movcud olan problemlər demək olar ki, tam həll olunmuşdur. İcra başçısı göstərmişdir ki, qəsəbəyə çəkilən yeni yol qəsəbə sakinlərinin bir çox problemlərinin həll olunmasında mühüm rol oynamış və digər mühüm əhəmiyyətli problemlər rayon rəhbərliyinin daim diqqət mərkəzində saxlanılır.

İcra başçısı görüşdə iştirak edən qəsəbə sakinlərinə müraciət edərək onları narahat edən problemlər barədə danışmağı təklif etdi. Bundan sonra qəsəbə sakinləri çıxış edərək öz təkliflərini bildirdilər və həll olunması vacib olan məsələləri diqqətə çatdırdılar. İcra başçısı qaldırılan məsələləri şəxsi nəzarətinə götürdü və problemlərin operativ qaydada həlli istiqamətində aidiyyəti üzrə idarə, müəssisə, təşkilat rəhbərlərinə tapşırıqlar verdi.

# Xalq yazıçısı İsa Muğannanın 90 illik yubileyi qeyd olundu

***Bu günlər Azərbaycanın görkəmli yazıçısı Ssenarist və kinoredaktor, "İstiqlal" ordeni laureatı İsa Muğannanın (Hüseynov) anadan olmasının 90-cı ildönümü Heydər Əliyev Mərkəzində təntənəli şəkildə qeyd olundu. Tədbir iştirakçıları ilk öncə Mərkəzin önündə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək dünya şöhrətli siyasətçinin xatirəsinə dərin ehtiramlarını bildirdilər. Gülqoyma mərasimindən sonra yubiley tədbiri Mərkəzdə təşkil olunmuş sərgi salonlarında davam etdirildi və tədbirə gələn qonaqlar buradakı sərgi ilə tanış oldular.***





Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, akademik Nizami Cəfərov, İsa Muğannanın qızı Sevinc Hüseynova, şairə Cığatel xanım, rayonun idarə, müəssisə təşkilatlarının kollektivləri iştirak edirdilər.

Yubiley tədbiri Heydər Əliyev Mərkəzinin böyük iclas zalında davam etdirildi. Tədbiri giriş sözü ilə Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev açaraq bildirdi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ədəbiyyatımızın inkişafına verdiyi böyük dəyər cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm prezidentimiz İlham Əliyev "İsa Muğannanın 90 illik yubileyinin keçirilməsi haqqında" 2018-ci may ayının 31-də imzaladığı sərəncam buna parlaq misaldır.





Hər il ölkəmizin hər yerində bugünkü gün Azərbaycanın ən şərəfli tarixi günlərindən biri kimi qeyd olunur. O, cümlədən İsa Muğannanın 90 illiyi Ağstafada da yüksək səviyyədə təşkil olunmuş və bu əlamətdar günlərdə ağstafalılar görkəmli yazıçıya olan öz hörmət və məhəbbətlərini ifadə edirlər.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev xalq yazıçısının həyat və yaradıcılığından bəhs edərək İsa Muğannanı müasir dövrün ən böyük yazarlarından biri kimi qiymətləndirdi.

Yubiley tədbirində iştirak edən millət vəkili, akademik, həmyerlimiz Nizami Cəfərov çıxış edərək İsa Muğannanın yaradıcılığı haqqında geniş danışdı, onun yazdığı əsərlərdəki qeyri-adilikdən danışdı və ustadın yaradıcılığının hələ bundan sonra da çox araşdırılacağını bildirdi.

Yubiley tədbirinin aparıcıları Cığatel xanım, Nizami Cəfərov İsa Muğannanın yaradıcılığı, onun xatirələri barədə danışmaq üçün yığıncaq iştirakçılarına söz verdi. İlk öncə Qazax Yazıçılar Birliyinin sədri Barat Vüsal danışdı. O, İsa Muğannanın yaradıcılığı haqqında danışaraq əvəzedilməz yazıçı olduğunu bildirdi, görkəmli yazıçının xatirələrindən söhbət açdı. Daha sonra Bakı Dövlət Universitetinin Qazax filialının kafedra müdiri, professor Hüseyn Xəlilov, Rayon Ağsaqqallar Şurasının sədri Firdovsi Heydərli, Azərbaycan Yazıçılar Birliyinin üzvü Cığatel xanım, "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev, Muğanlı kənd sakini Fəxrəddin Səfiyev çıxış edərək bildirdilər ki, müasir Azərbaycan ədəbiyyatının parlaq simalarından olan İsa Muğanna öz yaradıcılığı ilə milli-bədii fikrin zənginləşməsində mühüm rol oynamışdır. Onlar öz çıxışlarında qeyd etdilər ki, İsa Muğannanın xatirəsi həmişə yad edilmiş və bundan sonra da yad ediləcəkdir. Çünki İsa Muğanna təkcə Ağstafanın deyil, həm də bütün Azərbaycan xalqının sevimli yazıçısıdır.

***İ.Əliyev***



# Kənd təsərrüfatı işçiləri peşə bayramlarını qeyd etdilər

Noyabr ayının 1-də Heydər Əliyev Mərkəzində kənd təsərrüfatı işçilərinin peşə bayramı günü münasibətilə tədbir keçirildi. Tədbir iştirakçıları ilk öncə Mərkəzin önündə ümumilli lider Heydır Əliyevin abidəsi önünə gül dəstələri düzərək onun əziz və unudulmaz xatirəsinə dərin ehtiramlarını bildirdilər.

Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevtədbir iştirakçıları qarşısında çıxış edərək kənd təsərrüfatı işçilərini peşə bayramları münasibətilə təbrik etdi, onlara çətin və şərəfli işlərində uğurlar dilədi, kənd təsərrüfatı işçilərinin əməyinə yüksək qiymət verdiyinə görə möhtərəm prezidentimiz cənab İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdi. O, bügünkü əlamətdar günü dövlətin aqrar sahəyə göstərdiyi diqqət və qayğının təzahürü kimi qiymətləndirdi.

Tədbirdə Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Ramiz İmanov çıxış etdi, ölkə rəhbərliyinin onların qarşılarına qoyduğu vəzifələrin bundan sonra da layiqincə yerinə yetirilməsini təmin edəcəyini bildirdi.

Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev 2018-ci ildə Ağstafa rayonunda ölkə rəhbərliyinin qarşıya qoyduğu aqrar siyasətin layiqincə yerinə yetirildiyini bildirərək ötən dövrün uğurlu il olduğunu bildirdi. Tədbirin sonunda əmək fəaliyyətində fərqlənən bir sıra kənd təsərrüfatı işçilərinə Rayon İcra Hakmiyyətinin fəxri fərmanları təqdim olundu.

# Elmi-praktik konfrans

Heydər Əliyev Mərkəzinin böyük konfrans zalında Dövlət Bayrağı gününə həsr olunmuş konfrans keçirild. Konfransı giriş sözü ilə Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Eyyubova açaraq qeyd etdi ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında ilk hökümət qərarı Azərbaycan Xalq Cumhuriyyəti dövründə 1918-ci il iyun ayının 24-də verilmişdir.



Azərbaycan Respublikasının üçrəngli bayrağı 1992-ci il noyabr ayının 17də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında qaldırılmışdır. Bundan sonra Azərbaycanın dövlət bayrağı üçrəngli bayraq kimi təsdiq edilmişdir. L. Eyyubova çıxışında onu da qeyd etdi ki, Azərbaycan Respublikasının müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycanın dövlət bayrağı milli suverenliyimizin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cumhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, millimənəvi dəyərlərə və ümumbəşəri ideyalara sadiqliyimizi nümayiş etdirir.

Konfransda "Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev, 2 saylı tam orta məktəbin müəllimi Sevda Əliyeva, Heydər Əliyev Mərkəzinin direktoru Ləman Cəlilova çıxış edərək Azərbaycan xalqının milli qürur mənbəyi, dövlətçiliyimizin simvolu olan dövlət bayrağı haqqında ətraflı danışdılar. Çıxış edənlər həmçinin onu da qeyd etdilər ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı daxili və xarici siyasətin nəticəsi olaraq Azərbaycanın Dövlət Bayrağı yaxın vaxtlarda Şuşada, Xankəndində ucaldılacaqdır.

*Pedaqoji iş təcrübəsi*

# Zəif oxuyan şagirdləri dərsə necə cəlb edirəm

Mən gənc tarix müəllimiyəm və Vətənimin tarixi ilə qürur duyuram. Tarix keçmişimizlə gələcəyimiz arasında bir zaman körpüsüdür. Düşünürəm ki,keçmişimizi bilmədən, öyrənmədən gələcəyimizə işıq sala bilmərik. Tarix fənninin tədrisinə orta məktəblərdə geniş yer verilir. Bu məqaləmdə isə mən fənnlə bağlı deyil, müəllim-şagird münasibətlərinə aydınlıq gətirmək istəyirəm. Təhsil sistemində elm aşımaqla yanaşı şagird-müəllim münasibətləri çox önəmlidir. Fəal (interaktiv) dərsin aparılması üçün ən mühüm amillərdən biri müəllimin "bələdçi" rolunu həyata keçirməsidir. "Fasitilyasiya" adlandırılan təlim prosesində müəllimin mövqeyi əks etdirilir.Fasitilyasiya anlaşı özündə bir sıra bilik, bacarıq, vərdiş və şəxsi keyfiyyətləri birləşdirir. Bu prosesdə müəllim bir tərəfdən şagirdlərin fikrini təhrik etməli, onlara psixoloji, informasiya və təşkilati dəstək verməlidir. Digər tərəfdən isə qabiliyyət və səriştənin qazanılması, inkişaf etdirilməsi üçün əsas diqqəti fəaliyyət növlərinə yönləndirməli, şagirdlərin müxtəlif obyektlərin öyrənilməsi üçün müvafiq fəaliyyət növü seçilməlidir. Düzgün seçilmiş fəaliyyət növü öyrətmənin əsas təməlidir. Qabiliyyət və səriştə anlayışları iki cür fərqləndirilir:

1. Qabiliyyət-qarşıya qoyulan məqsədi vərdişlər hesabına reallaşdırmaq bacarığıdır və ya müəyyən bir fəaliyyət bacarıqla yerinə yetirməsidir.

2. Səriştə-müəyyən vəziyyəti əvvəldən hazırlıq etmədən qiymətləndirmə bacarığıdır.

Fəal dərsdə "motivasiya" dərsin vacib komponentdir-təfəkkür prosesini hərəkətə gətirən və şagirdlərin idrak fəallığına təkan verən prosesdir. Motivasiya mərhələsində müəllim şagirdi dərsin mövzusunu müəyyənləşdirməyə yönəldir, müəmmalı, gözlənilməz, qeyri-adi, müstəqil təfəkkürü, elmi-tədqiqat vərdişlərini inkişaf etdirən tapşırıqlarla təmin edir. Müəllim yönləndirir, şagird isə özünün vərdiş və bacarıqlarından qaynaqlanaraq mövzunu müəyyən və təhlil edir.

Aydın olduğu kimi sinifdə şagird səviyyəsi eyni olmur. Sinifdəki şagirdlər bir neçə tiplərə bölünür. Biz isə fikrimizi sinfin həssas yeri olan əzif oxuyan şagirdlərə yönəldək. Hər bir şagirdin özünün hüquq və vəzifələri var. Hansısa şagird zəif oxuyur deyə o, dərsdən fərdi və mənəvi olaraq kənarlaşdırılmamalıdır. Əslində fəal (interaktiv) təlimdə fəal təlim üsullarından:

Təqdimat, kublaşdırma, ziqzaq, beyin həmləsi, BİBÖ, akvarium, auksion, karusel, klaster, ven diaqramı, söz assossasiyalarından istifadə edərkən sinifdəki bütün tip uşaqlar dərsdə yaxından iştirak edir. Müzakirə, dinləmək, təqdim etmək, sual vermək mədəniyyəti formalaşdırılır, şagirdlərin məntiqi və tənqiditəfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Fikir müzakirəsi və mübadiləsində bütün tip şagirdlər önəm daşıyır,hər şagirdə fərd və qrup üzvü kimi yanaşılır,amma yenə istisna hallar olur. Adətən zəif oxuyan şagirdlər dərsə çox az meyilli olurlar və dərs müddətində dərsə adaptasiya olmadıqları kimi digər şagirdləri də öz yollarına çəkmək istəyirlər.Belə şagirdləri səmərəli yönə yönəltmək üçün mən bir müəllim kimi bir neçə yollardan istifadə edirəm.Hər bir şagirdin şəxsi düşüncə və müşahidə yolları var,mən də bunları üstün tutaraq şagirdlərə individual yolla yanaşmağa çalışıram.Tutaq ki, bir uşağın gözəl əl qabliyyəti var, amma dərsi dinləməyə marağı yoxdur,(məsələn:) mən isə ona Şah İsmayıl Xətaini tanıtmaq istəyirəm.Mən həmin şagirdə Xətainin rəsmini verirəm və onun qarşısına rəsmin naturadan əksini çəkməsini məqsəd qoyuram. Şagird şəkli çəkməklə yanaşı onda şəxsiyyətin kimliyi ilə bağli maraq da oyanır və onun haqqında məlumat öyrənir.- Bu yolla şagirdə həm məlum şəxsi tanıtmış, həm də onun haqqında məlumatlandırmış oluram. Digər bir yol:mən tədris olunan mövzuya aid şagirdə uyğun obyekt verirəm və ona bu obyekt üzərində tədqiqat aparmasını tapşırıq verirəm.Şagird ona verilən bu tapşırığı böyük həvəslə qəbul edir,özünü xüsusi, müəllimin diqqətini qazanmış hiss edir və tapşırığın üzərində olduqca həvəslə çalışır. Bunula mən şagirdə ona qarşı olan diqqətimi yetirmiş oluram və onda ruh yüksəkliyi qaldirmağa çalışıram. Şagirdin müəllimin diqqət mərkəzində olduğunu bilmək hər bir şagird üçün böyük önəm daşıyır. Şagird bir açılmamış bir mənbədir,müəllim onu istədiyi kimi yönəldə, kəşf edə, isiqamətləndirə, yetişdirə bilər.

Firudin bəy Köçərlinin məşhur bir kəlamı var: "Əgər bir xalqı məhv etmək istəyirsənsə, müəllimini savadsız, həkimini isə kəmsavad eləyin. Biri onun başını, digəri isə canını zay eləsin". Bir xalqın gələcəyi və inkişafı onun müəlliminin əlindədir. Bütün təhsil işçilərinin ən önəmli və vicdanlı vəzifəsi məhsuldar şagird yetirməkdir. Bu bizim müstəqil dövlətimizin inkişafı üçün böyük yatırımdır. Əslində qeyd olunan bütün təlim formalarının yalnız bir məqsədi var: vətənimiz ,dövlətimiz üçün layiqli vətəndaş,işçi,gələcək yetişdirmək.Hesab edirəm ki,dövlətimizin gələcəyi indiki yenilikləri və fəaliyyətləri nəzərə alsaq çox parlaqdır.

***Şəfəq Heydərli,***
***Qıraq Kəsəmən kənd tam orta məktəbin tarix müəllimi***

# "Keşikçidağ"a növbəti ekskursiya

Rayon İcra Hakimiyyətinin dəstəyiilə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Abidələrin Tanıdılması, Təbliği və Qorunması Məqsədilə "Keçikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunda ardıcıl tədbirlər həyata keçirilir.

"Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun "Mədəni İrsimiz-Keşikçidağ" layihəsi çərçivəsində Ağstafa rayonunda keçirilən ekskursiyalar belə tədbirlərdən biridir. Bu cür məqsədyönlü tədbirlərdə rayonun idarə, müəssisə və təşkilatlarında çalışanların asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.



Bu günlər qoruq tərəfindən keçirilən növbəti yürüşdə bu tədbirdə iştirak edənlərə "Keşikçidağ"ın tarixi, təbiəti, abidələri barədə ətraflı məlumat verilmişdir. Tədbir iştirakçılarına bildirilmişdir ki, qoruğun ərazisində ulu əcdadlarımızdan miras qalmış, yaşı 2000 ilə çatan təbii və sonradan tikilmiş 70-dək mağara mövcuddir. Qafqaz Albaniyasının yerli əhalisi tərəfindən inşa edilmiş qala orta əsrlərə aid iki alman məbədindən, tarixiateşpərəstlik dövrünə gedib çıxan, yerli əhali arasında şəfaverici suyu olan məkan kimi tanınan inanc yeri məhz belə tarixi abidələrdəndir. Yaxın vaxtlarda ""Keşikçidağ" mağaralar kompleksindən 3 km cənubda ərazimızdan əvvəl 2-ci minilliyə aid kurqanlar da aşkarlanıbdır.

Belə tədbirlərin keçirilməsi rayon ictimaiyyətində və eləcə də ekskursiya iştirakçılarında böyük maraq doğurmuş və bu tədbirlərin keçirilməsi qoruqda müntəzəm olaraq davam etdirilir.

# Bizim uşaq bağçamız



Üç ildən çoxdur ki, şəhər 5 saylı körpələr evi-uşaq bağçasına rəhbərlik edirəm. Əvvəllər də uşaqlarla işləmiş, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olmuş, şəhər məktəblərinin birində çalışmışam. Həmişə istəmişəm ki, valideynlərin bizə etibar etdikləri uşaqları tələb olunan qaydada tərbiyə edim və onlar xoşbəxt gələcəyimizin layiqli vətəndaşı kimi boya-başa çatsınlar.

Bu gün işlədiyim uşaq tərbiyə müəssisəsində 60-dan çox uşaq vardır. Hər gün işə gələndə bağçamızdakı uşaqları görəndə üreyim dağa dönür. Sevinirəm ki, onların valideynləri bizə inanır, güvənir və buna görə də öz uşaqlarını bizə etibar edib bağçamıza gətirirlər.



Bağçamızdakı şərait heç də günün tələbləri səviyyəsində deyildir. Lakin buna baxmayaraq, biz imkan daxilində onlar üçün yetərincə şərait yaratmışıq. Ən başlıcası odur ki, tərbiyəçilərimiz, eləcə də bütün işçilərimiz ürəklə çalışır, öz üzərlərinə düşən vəzifəni lazımınca yerinə yetirirlər.

Bağçamızda həmişə tədbirlər keçirilir, əlamətdar günləri qeyd edir, uşaqların xoşladıqları oyunlar təşkil edir, mahnı bayramları keçirir, körpələri məktəbə layiqincə lazırlayırıq. Bütün bunların nəticəsidir ki, bağçamızla vidalaşan uşaqlar təhsil aldıqları məktəblərdə özlərini doğruldur, müəllimlərin sevimli şagirdləri olurlar. Mən fürsətdən istifadə edərək bağçamızda tərbiyəçi işləyən Avtab Qurbanovanın, Vəsilə Nəcəfovanın, Şəlalə Allahverdiyevanın, dayə Xanım Musayevanın, musiqi rəhbəri Aygün Osmanovanın adlarını xüsusilə qeyd etmək istəyirəm. Onların işindən çox razıyam.

Bu günlər ölkəmizin hər yerində Dövlət Bayrağı Günü, Konstitusiya Günü qeyd olunur. Biz də bu əlamətdar günləri həvəslə qeyd edir, uşaqlarımızla şənlənirik. Mən çalışacağam ki, bağçamızdakı belə xoş əhval-ruhiyyə həmişə davam etsin, uşaqlarımız xoşbəxt böyüsünlər.

***Şəhla Paşayeva,***
***5 saylı körpələr evi-uşaq bağçasının müdiri***

## Elanlar

"N" saylı hərbi hissədə xidmət edən Muradov Elazim Ələs oğluna verilmiş AD 0018770 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.

* * *

Eynallı kənd sakini Rəhimov Cavanşir Qurban oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-466F nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

* * *

Qırılı kənd sakini Həbibov Ədalət Avıl oğlunun adına olan Torpağın mülkiyyətə verilməsinə dair JN-967 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Ağstafa şəhər sakini Məmmədova Lala Süleyman qızının adına olan 205 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Ağstafa" qəzetinin baş redaktoru İbrahim Əliyev Ağstafa Sürücülük Məktəbinin direktoru Nizami Əfəndiyevə, qardaşı

**Füzuli Əfəndiyevin**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

Aydın Tağızadə yaxın dostu Nizami Əfəndiyevə, qardaşı

**Füzuli Əfəndiyevin**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir, ailəsinin adından dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR:**

**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*

*Şəadətnamə № 308*

*Redaksiya heyəti*

*L.Eyyubova, L.İsayeva, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, G.Kərimov, A.Tağızadə, F.Heydərli*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*